*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 18-29*

https://doi.org/10.62837/2026.3.18

**Dos.AFAQ YUSİFLİ**
**Gəncə Dövlət Üniversiteti**
**Azerbaycan ve dünya ədəbiyyatı kafedrası**
**yusifli.afaq@mail.ru**
**ORCİD 0000-0001-8621-850X**

# RƏSUL RZA ƏNƏNƏVİ ŞEİR VƏ QAFİYƏ HAQQINDA

**Xülasə**

R. Rza müasir Azərbaycan şeirinin ən tanınmış və ən çox sevilən, oxunan sənətkarlarından biridir. Onun poeziyası ədəbiyyatımızın tarixində yeni bir hadisə kimi qarşılanmış, əleyhdarlar, pərəstişkarlar toplamışdır. Ədəbiyyatımızda sərbəst şeirin dönməz tərəfdarı olan Rəsul Rzanın irsində ənənəvi şeirə münasibətin özünü də bir mənalı qiymətləndirmək, şərh etmək çətindir. Ənənəvi şeir tərəfdarlarına kəskin, bəzən kobudluq dərəcəsinə çatan cavablar verən R. Rzanın yaradıcılığnda klassik irs, xüsusilə Füzuli ənənələri ilə bağlılıq axtarmaq, bəlkə də, qəribə və gözlənilməz görünə bilər. Lakin Rəsul Rza istər elmi məqalələrində, istərsə də poeziyasında klassik irsə münasibətini həm alim, həm şair kimi sərgiləmiş, bəzən birbaşa, bəzən də metaforik şəkildə sənət və sənətkar haqqında düşüncələrini ifadə etmişdir. Keçmiş ədəbi irsə söykənmədən, ənənələrə hörmətlə yanaşmadan novator sənətkar olmaq imkansızdır. Yəni əvvəlki dövrlərin poetik axtarış və uğurlarını bilmədən, onlardan öyrənmədən yenilik yaratmaq mümkün deyildir. Bu həqiqəti Rəsul Rzanın sərbəst şeir sahəsindəki uğurları bir daha təsdiq edir. O, klassik üslubda yazmayıb, əruza və ya qəzəl janrına müraciət etməyib. Ancaq onun yaradıcılığında klassik irsə, xüsusilə Füzuli ənənələrinə bağlılıq həm etiraflarında, həm də ədəbi nümunələrində bütün aydınlığı ilə hiss olunur və təsdiqlənir. Rəsul Rzanın Füzuliyə ünvanlanan açıq etirafları 50-60-cı illərə aid olsa da, onun Füzuli irsinə, Füzuli ənənələrinə bağlılığının kökləri daha əvvələ, daha dərinlərə gedir. Onun “Müşfiqi unutmaq olmaz”, “Nəsiminin bir beyti haqqında”, “Kanonları pozaraq” kimi məqalələrində həm klassik irs, həm də sərbəst şeirin qarşılıqlı əlaqəsindən və əlaqədən yaranan yenitipli poeziyadan danışılmışdır. Məqalədə şairin həm elmi əsərləri, həm poetik nümunələrində poeziya haqqında düşüncələri, gəliyi qənaətlər nəzərən keçirilmişdir.

**Açar sözlər:** ənənə, klassik irs, sərbəst şeir, poeziya, novatorluq

## Mövzunun aktuallığı

Rəsul Rza yaraıcılığının klassik ənənəyə bağlılığını M. Arif şairin əsərlərinə yazdığı bir önsözdə belə açıqlayır: "Rəsul Rza bütün yaradıcılığı ilə azəri ədəbiyyatının ən gözəl və zəngin ənənələrinə bağlıdır. Onun poeziyasında həm xalq poetik yaradıcılığına, həm də milli klassik şeirə xas olan yüksək keyfiyyətlər birləşmişdir… Şair Füzulidən Sabirə, Vaqifdən Aşıq Ələsgərədək bütün şeir ustalarımızın fəlsəfi,

aşiqanə, satirik üslubunu, dastan, qoşma və bayatılarımızın məna gözəlliyini, səmimiyyətini qoruyub saxlamışdır. Lakin ənənə nə qədər gözəl, qiymətli və əziz olsa da, yaradıcı xəyala, sənətkar qələminin vüsətinə, ilham qanadlarının sərbəst uçuşuna çidar olmamalıdır. Əksinə ən yaxşı nəcib ənənə sənətkarı irəliyə, icada çağırır. Zaman isə şairdən xalqın əsrlərdən bəri yaranmış ənənələrinə yeni bir şey əlavə etməyi, onu zənginləşdirməyi tələb edir" [1.s.7].

**Rəsul Rza sərbəst şeir və qafiyə haqqında**

M. Arif R.Rza irsinin ənənə ilə bağlı olduğunu etiraf etsə də, onun ənənəni çidar hesab etdiyini, ənənə buxovlarını qırıb atdığını da etiraf edir. Zahirən burada bir paradoks vardır. Ənənəni inkar və ona bağlılıq bir-birini rədd edən məqamlardır. Ənənəyə bağlılığın ən aşkar və sadə formalarından biri sələf sənətkarın bu və ya başqa əsərinə cavab yazmaq, onun bu və ya başqa fikirlərindən istifadə etməkdir. R. Rzada belə bir təşəbbüs, hərəkət yoxdur. O, Füzulini hörmətlə xatırlayır, onu sevdiyini, oxuduğunu, anladığını qeyd etməyi unutmur. Onun irsini mükəmməl bilməyin nəticəsi olaraq ona ayrıca poema həsr edir. Eyni zamanda R. Rza ənənəvi şeir yolu ilə getmədiyini, yenilikçi, tapdanmış yollarla getmək istəməyən bir sənətkar olduğunu, bu cəhətdən bir çox müasirlərindən fərqləndiyini, buna görə tənqidlərə, hücumlara məruz qaldığını deməyi də unutmur. "Qafiyə" adlı bir şeirini götürək. Bu, nə Füzulinin "Söz" qəzəlidir, nə Vaqifin hər hansı qoşmasına cavabdır. Ənənəyə də, Füzuliyə də, müasir poeziyanının inkişaf yollarına da yenilikçi bir münasibətdir. Şeir əvvəlcə ənənəvi qafiyə tələblərinə etiraz, üsyan kimi başlayır. Ənənəvi qafiyə nümunələri gətirilir. Sonra Füzulinin "Məni candan usandırdı, cəfadan yar usanmazmı" misrasındakı məntiqə uyğun bir məntiqlə ənənəyə bağlılığın məlum, məşhur yolu rədd edilir:

Alan və salan
Dan və aman.
Yorulmadınmı?
Cüt olur qulaqları
insanın.
Nə olsun?
Elə buna görə gərək
bütün sətirləri
divara xalça mıxlayan kimi
qafiyələyək?
Həm də yan-yana
cüt-cüt.
Şairə yazığın gəlmirsə,
oxucuya yazığın gəlsin.
Qoy qulaqları bir az…
Gözləyirsən, deyim:
dincəlsin!

Yox, "sakit olsun",
Belə!
Qafiyəsiz. [2. Ic.s.426].

Buradakı bütün sətirlər, sözlər Füzulinin adını çəkdiyimiz misrasının məntiqinə uyğun şəkildə yaradılmış, ona uyğun şəkildə qurulmuşdur. Şair demək istəyir ki, məlum, cüt-cüt qafiyələri işlətməkdən, oxucunu bu yolla usandıran, yoran şairlərdən fəryad edir. Onlardan Füzuli sayaq bir məntiqlə yorulmadınızmı, usanmadınızmı, heç olmasa, oxucuya yazığınız gəlmədimi deyə soruşur, mühakimə edir. Bu baxımdan M. Arif haqlı olaraq deyir ki, R. Rza ənənəyə bağlıdır, eyni zamanda onu çidar sayır, bəzi məqamlarını, cəhətlərini rədd edir.

"Qafiyə"şeirinin ikinci hissəsində R. Rza özü də mövqeyini, ənənəyə və qafiyəyə münasibətini dəqiq bildirir. Həm ənənəyə bağlı, həm də yenilikçi olduğunu büruzə verir:

Bu sözlərim
elə bilmə
Hər cürə qafiyəyə dairdir,
Yox.
Qafiyəyə nə gəlib.
Axtaran olsun gərək.
Qafiyəyə nə olub,
çeynəyib gövşəməsək.
Onu yaman günə qoyan
qələmi küt şairdir.
Sözüm belələrinə dairdir. [2.Ic. s.426-427].

Buradan aydın olur ki, şair həqiqi qafiyəni, fikrə, məzmuna mane olmayan, dönə-dönə təkrarlanmayan qafiyəni rədd etmir və bütövlükdə qafiyəli olub-olmamasından asılı olmayaraq həqiqəti əks etdirən şeirin tərəfdarıdır.

R. Rza elmi məqalələrində də təxminən eyni qənaəti əks etdirir və daha çox sərbəst şeiri müdafiə edən fikirlər yürüdür. Həmin şeirlərində də ən çox qafiyə əleyhinə çıxır. Şair belə hesab edir ki, sərbəst şeir ənənəvi qafiyə sistemini, donmuş ölçüləri, bəndin məcburi formalarını və arxitektonikasını rədd etməklə meydana çıxır. "Sərbəst şeir üçün bütün bu ənənəvi qaydalar məcburi deyil. Bununla belə, Azərbaycan sərbəst şeiri qafiyəni tamamilə rədd etmir. Əksinə, sərbəst şeirdə iki, üç, dörd, beş və daha çox misra ardıcıl qafiyələnə bilər. Eyni zamanda bir neçə misra qafiyələnməyə bilər, yaxud həmqafiyə misraların arasında iki, üç, dörd, beş qafiyələnməyən misra gələ bilər". [6.IVc. s. 486].

Başqa sözlə, R. Rza qafiyənin ənənəvi normalara tabeliyini, hər janrda ondan istifadə ölçü və tələblərini rədd etmir. Qafiyəyə bu cür münasibət klassik ədəbiyyatın ənənəvi normalarından uzaqlaşmaq, onu ancaq müəyyən qeyd-şərtlərlə qəbul etmək deməkdir. R. Rzaya görə, "qafiyə o zaman lazımdır ki, poetik fikrin

daha qabarıq ifadəsi onu tələb etsin. Ölçü kimi, bənd də fikri buxovlayır, poetik orqanizmə bir çox lüzumsuz, gərəksiz şeylər gətirir" [6.IVc.s. 486].

Ancaq bizə elə gəlir ki, klassik poeziyanın minillik tarixi və təcrübəsi bu qənaətin tam doğruluğunu rədd edir. Məgər Füzulnin, Vaqifin, Sabirin, əsərlərində qafiyə və ya bəndlə bağlı lüzumsuz, gərəksiz şeirlər tapmaq olarmı? Belə şey mümkündürmü? Ədəbiyyat fikirlə yanaşı, həm də formadır, onun rəngarəng forma tərəfləridir.

R. Rzanın bu münasibətlə yazdığı məqalədə bir cəhət də maraqlıdır. Şair belə hesab edir ki, "Qafiyə və ya ölçü poeziya illüziyası yarada bilər, forma etibarilə oxucuların diqqətini cəlb edə bilər, lakin poeziyadan məhrum olan fikrə poetik ruh verə bilməz" [6.IVc.s. 486].

Bu fikir o qədər də təzə deyildir. Orta əsrlərin bütün poetika kitablarında, ayrı-ayrı sənətkarların şeir nəzəriyəsi ilə bağlı mülahizələrində bu qənaət dönə-dönə irəli sürülmüşdür. Nizaminin, Füzulinin, Sabirin, S. Vurğunun əsərlərində bununla bağlı kifayət qədər fikirlər tapmaq mümkündür. XIV əsr şairi Arif Ərdəbili yazırdı:

İndi adamların zövqü incədir,
Gəzdiyi nə rədif, nə qafiyədir. [2.s.38].

Başqa sözlə, ənənəvi şeir nümayəndələri yaxşı bilirdilər ki, qafiyə, rədif, ölçü və s. şeirin texniki, forma cəhətləridir. Şeirin mahiyyəti onun məzmununda, ifadə olunan fikirlərin səviyyəsində, doğruluğunda üzə çıxır. "Sərbəst şeir poetik fikrin tam, təbii və sadə ifadəsi üçün böyük imkanlar açır" [6.IVc.s. 486] fikri də mübahisəli görünür. Məgər Füzuli, Sabir, S. Vurğun fikrin tam, təbii və sadə ifadəsi üçün imkansızmı olmuşdur?

"Gənclər" adlı məqaləsində R. Rza yenidən bu məsələyə qayıdır və fikirlərini bir az da dəqiqləşdirir. Müasir şairlərin hansı ənənələr üzərində yetişdiyini xatırladır. "Nəsimi və Füzulinin uzaq nəsli, Vaqif və Vidadinin nəticələri, Sabirin, Cavidin nəvələri, Səmədin və Süleymanın oğulları, Fikrət Sadıq və Fikrət Qocanın kiçik qardaşları-bunlar Vahid Əziz, Vaqif Nəsib, Çingiz Əlioğlu, Sadıq Qara, Qürbət Əzizov və Rövzətdir. Qarşımda bu şairlərin şeirləri durur. Bu şeirlərdə müasir dünyamızın mürəkkəbliyi, ziddiyyətləri ifadə olunur" [6.IVc. s.497-498].

R. Rzanın bu qeydində həm qədim zamanlardan günümüzə qədərki Azərbaycan şeirinin müxtəlif nümayəndələri xatırlanır, həm də onların yolu ilə gedən və getməyən, sərbəst formada və yaxud ənənəvi formalarda yazan gənclərin adları çəkilir. R. Rza arxaizm torundan çıxa bilməyən, boyat bəzək-düzəkləri çeynəyən, solub rəngini itirmiş obrazların arxasınca qaçan "ənənəçiləri" rədd edir. Şair belə hesab edir ki, Azərbaycan poeziyasında hansı istiqamətin-ənənəvi şeir formalarının, yaxud sərbəst şeirin qalacağı, hansının zamanın və xalqın fikrini ifadə edə biləcəyi ətrafında uzanan mübahisə indi bir cəhl, sxolastika kimi səslənir. İndi ancaq həddindən artıq geridə qalmış adamlar pıçıltıyla sərbəst şeirin Azərbaycan poeziyası üçün yabancı olduğunu deyir. Köhnə şeirin keşiyində dayanmış bu həqiqətpərəst

cəngavərlərə məşhur bir ifadəni azacıq dəyişməklə belə cavab vermək olar: - Formaların hamısı yaxşıdır, içi boşundan başqa". [6. IVc. s. 499 -500].

R. Rzanın məqalələrində də, şeirlərində də ənənəvi, şablon formalardan qaçmağa, yenilik arxasınca getməyə çağırış əsas yer tutur. O, sərbəst şeir formasından istifadə edib köhnə cır-cındırları bir yenilik kimi qələmə verən "novatorları" da qəbul etmir. "Poeziya adilikdən müəyyən dərəcədə parlaq rəngdir. Bu, adi hisslərdən dərin, zəngin və iti hisdir", deyən şair belə hesab edir ki, bu adi hislərdən dərin hissləri sərbəst şeirin imkanları ilə ifadə etmək daha çox mümkündür və zəruridir.

**Rəsul Rza yaradıcılığında Füzuli və Nəsimiyə münasibət.**

Bir həqiqəti etiraf etmək lazımdır ki, R. Rza ənənəvi şeirə ehtiyatlı bir münasibət göstərsə də, onun Füzulini sevdiyini, anladığını, bildiyini inkar etmək çətindir. Onun məqalə və şeirlərində Füzuli o qədər də çox görünmür. Ancaq Füzuli onun əsərlərində elə gözlənilməz məqamlarda meydana çıxır və elə bir tərzdə xatırlanır ki, istər-istəməz R. Rzanın qəlbində, ruhunda dərin, güclü bir Füzuli sevgisinin olduğunu etiraf etməli olursan. Budur, "Müşfiqi unutmaq olmaz" məqaləsi. Bu məqalədə Müşfiqlə bağlı bir çox xatirələr çözələnir, yada salınır. O cümlədən, Müşfiqlə birlikdə Sabit Rəhmanın Dağlı məhəlləsindəki balaca daxmasına getmələrini xatırlayan R. Rza yazır: "Biz tez-tez Sabit Rəhmanın "guşeyi-inziva", yaxud "fərdi cənnət" adlandırdığı bu daxmaya yığışardıq. Biz Füzulinin məşhur "Duzəxə girməz sitəmindən yanan, Qabili-cənnət deyil əhli-əzab" misralarını oxuyardıq, gülüşərdik. Müşfiq isə əlavə edərdi: "Sabit, sənin bu otağında yaşayana min il cəhənnəm əzabı yoxdur ". [6. IV c. s.442-443]. Rəsul Rza "Süleyman Rüstəmin qəzəlləri haqqında" məqaləsini Füzuli irsinə, onun qəzəllərinə münasibətini açıqlamaqla başlayır və yazır. "Ölməz Füzulinin hər qəzəli öz mənası ilə bizi heyran qoyduğu kimi, öz musiqisi ilə də qulaqlarımızı oxşayır, qəlbimizi titrədir, ruhumuzda alovlu bir iz buraxır. Füzuli qəzəli bir sənət növünün çərçivəsinə sığmayan qüdrətli bir ilhamın danışan, həm də səslənən lisanıdır. Bəlkə bu səbəbdəndir ki, hələ də Füzuli qəzəlinin səviyyəsinə qalxan bir qəzəlçi şair olmamışdır" [186). Eyni məqalədə Rəsul Rza "Füzuli bir ustad, ondan sonra gələn və qəzəl yazmaqda öz qüdrətini sınamış şairlərimiz isə ancaq onun şagirdi olaraq qalır". [9.Vc.s.187] deyə çox doğru bir hökm irəli sürür. Daha çox Kərkük xoyratlarına həsr edilən "Uzaq ellərin yaxın töhfələri" adlı məqaləsində R. Rza yenidən Füzuli haqqında dərin incələmələrə girişir, Füzuli ilə bağlı bir çox narahat suallara aydınlıq gətirməyə çalışır, müşahidə və qənaətlərini qələmə alır [9.Vc.s.84-105]. Bir qədər sonra haqqında danışacağımız şeir və poemalarında şairin Füzuli haqqında mülahizə və düşüncələri daha rəngarəng və dərindir.

Bu qeydlər göstərir ki, Füzuli R. Rzanın sevdiyi, duyduğu, əzbər bildiyi, anladığı bir sənətkar olmuşdur.

Bildiyimiz kimi, R. Rzanın ən çox sevdiyi, qiymətləndirdiyi sənətkarlardan biri də Nəsimidir. O, Nəsimi barədə bir neçə məqalə yazmış, bu böyük fikir, şeir bahadırının qəbrinin Hələbdə indi də durduğunu, qorunduğunu ilk dəfə o aşkarlamış, elmi ictimaiyyətə və geniş oxucu kütləsinə çatdırmışdır. "Nəsiminin bir beyti haqqında" adlı məqaləsində isə yenə Füzuliyə müraciət olunur, mübahisəli görünən bir fikrin təsdiqi üçün Füzuli köməyə çağırılır. Elə bir dəlil, elə beyt nümunə gətirilir ki, R. Rzanın Füzulini dərindən bildiyinə, sevdiyinə, onun böyüklüyü qarşısında səcdə etdiyinə şübhə yeri qalmır. İstər-istəməz belə qənaətə gəlirsən ki, R. Rza şeirindəki yenilik Füzuli poeziyasının böyük ənənələri üzərində ucalan yenilikdir.

R. Rza belə hesab edir ki, Nəsiminin "Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar, Gör bu miskin aşiqi sərpa soyarlar ağlamaz" şəklində məşhur olan beyti əslində başqa cür olmuşdur. Buradakı "miskin" və "ağlamaz" sözlərinin yerində "gerçək" və "ağrımaz" sözləri işlənmişdir. R. Rza bu barədə fikirlərini, qənaətlərini yekunlaşdıraraq yazır: "Nəsimi öz sevgilisinə qul ola bilərdi, onun qarşısında özünü aciz, xəstə, yaralı, zavallı adlandıra bilərdi. Lakin bu mərd insan heç bir cəza qarşısında düşmənə təslim ola bilməzdi… Və əzablara dözüb ağlamadığını bir şöhrət kimi qələmə verməzdi. Onun fiziki, mənəvi dözümü bəlkə də gələcəkdə böyük Füzulinin "Az eyləmə inayətini əhli-dərddən, Yəni ki çox bəlalara qıl mübtəla məni" misralarındakı əhvali-ruhiyyə, əsrlərdən sızıb keçən bir rəng, bir çalar, bir arzudur" [6. IVc. s. 472].

"Babam kimi və bugünkü adam kimi" şeirində Füzuliyə başqa bir bucaqdan yanaşılır. Daha yaxın çağların şairləri dünənki oxucunu təmin edirsə, Füzuli bu günün oxucusunun ruhunu, zövqünü oxşayan bir şair kimi xatırlanır.

Babam da şeiri sevərdi,
Mən də sevirəm.
O, Qumrunu, Racini sevərdi,
Mən Füzulini, Sabiri
və balaca Vaqifi.
Nə o bu günün adamı idi,
Nə mən o günün.
Həyatda, hər şey kimi
adətlər, vərdişlər də
doğulur, ölür, doğulur. [4.II c.s. 396-397].

R. Rza "balaca Vaqif" deyə Vaqif Səmədoğlunun adını Füzuli ilə yanaşı çəkir, onun da balaca Vaqif qədər müasir, cavan, yeni olduğuna inamı bildirir. Bütün bunlardan əlavə şeir özü Füzuli şeirlərinə bənzər bir üslubla yazılmışdır. Füzuli də müqayisəni sevir, R. Rza da. Məsələn, Füzuli "Padşahi-mülk" qitəsində özü ilə dövrünün sultanlarını qarşılaşdırır, R. Rza isə bu şeirində babası ilə özünü müqayisə edir. Bu tam Füzuli müqayisəsi deyil, ancaq həm də məhz Füzuli sənətinin müqayisələri ilə müqayisə oluna bilən bir müqayisədir. Füzuli ənənəvi qitə janrının

qanunları ilə hərəkət edir, R. Rza sərbəst şeirin bütün imkanlarını işə salır. Şairin babasının gözü qara, əlləri qabarlı, ən uzaq mənzili Zərdab kəndi, geydiyi arxalıq, ən çox sevdiyi kəlmə "Lailahəillallah" sözüdürsə, şairin gözü ala, əlləri mürəkkəb boyalı, ən yaxın mənzili Moskva, Vyana, ən çox sevdiyi söz mübarizə, azadlıqdır. Bu şəkildə davam edən müqayisələrin biri daha maraqlıdır və istər-istəməz bu qarşılaşdırmanı "Padşahi-mülk" dəki qarşılaşdırma ilə yaxınlaşdırır:

Babam qoçaq idi,
Yaxşı tüfəng atardı.
Bir koldan qalxan
sağa-sola millənən turacların
vurardı ikisini də.
Hayıf! Hayıf!- deyərdi,
bir çimdik barıta,
bir dənə qırma itkisinə də.
Mən də ovçuluqda mahirəm.
Atdığımdan dəyəni çox olur.
Ancaq ovçuluq deyil peşəm.
Sərrast atıram-deyə
nahaq qan tökməmişəm.
hesablayıb mərminin
uçuş əynəmini,
topu elə ataram ki,
təpə dalında hədəfə dəyər;
qələm alıb rəqəmləri
yerbəyer düzsəm əyər. [4.II c.s. 397-398]

R. Rza Füzulidən hazır obrazlar, qəliblər götürməyib, ondan həyata, hadisələrə yanaşmaq bacarığını, müqayisələr yolu ilə həqiqəti deyə bilmək hünərini öyrənmişdir.

R. Rza Füzulidən hazır bənzətmə, qafiyə, fikir götürmür. O, Füzulidən dünyanın dərdinə yanmağın və bu yanğını səmimi, obrazlı, dövrün tələbi səviyyəsində ifadə etməyin sirlərini öyrənir. Ənənəyə bağlılığın əsl yolu da budur.

R. Rzanın "Kefli İsgəndər" şeirini götürək. "Ölülər" əsərindəki İsgəndər surətini R. Rza özünəməxsus şəkildə şərh edir, açır. Kefli İsgəndərlə bir çox müasirləri arasında müəyyən yaxınlıq, tale birliyi, oxşarlığı görür:

İsgəndər içərdi.
Ləqəbi də kefli İsgəndərdi.
Gecə-gündüz düşündürürdü onu
diri ölülərin dərdi.
Yoxsa o da bir poçt məmuru olar,
nə dərdlənər, nə içərdi.

Ömrü ölülər içində
sakit, səssiz keçərdi.
Qınamayın kefli İsgəndəri!
Yaman olur anlamaq dərdi. [4.II c.s. 264].

Bu şeirdə ifadə olunan fikrin də Füzuli irsində parallellərini tapmaq o qədər də çətin deyildir. Elə götürək "Füzuli rindi-şeydadır, həmişə xəlqə rüsvadır, Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?!" beytini. Füzulinin lirik qəhrəmanını da meyxanalar küncündə yatan bir rində çevirən anlamaq dərdi, dünyanın dərdi, diri ölülərin dərdidir. Lirik qəhrəman olan rindlə realist kefli İsgəndər surəti arasında fərq çox azdır. Bu surətlərin mahiyyəti birdir. Kefli İsgəndəri düz yola gətirməyə çox təşəbbüslər olur, onu da başqa məmurlardan birinə çevirmək istəyirlər, ancaq o da Füzulinin şeyda rindi kimi öz sevdasından əl çəkmir, bir olan Leylisini başqası ilə əvəz etmir. O öz sevdasından usanmır. Kefli İsgəndər Füzulinin rindi kimi, Füzulinin rindi isə R. Rzanın və C. Məmmədquluzadənin kefli İsgəndəri kimi. Füzuli ənənələri ilə bağlılıq bu cür R. Rza şeirinin mahiyyətində, həyata, insanlara, ideala aydın barışmaz münasibətindədir.

"Poeziya, ağ nöyüt və sairə…" adlı şeirdə Füzuli məhəbbəti başqa cür ifadə olunur. Müasir kəndin acınacaqlı vəziyyəti, adamların mənəvi geriliyi, onların öz gündəlik qayğı və ehtiyaclarından uzağa gedə bilmədikləri barədə söhbət şeirin əsas mövzusudur. Vaqifin "Hayıf ki, yoxdur" qoşması yada düşür. Ancaq Vaqif təsvir etdiyi mühitdən qaçmaq, Şuşaya qayıtmaqla bu təsvir olunan aləmlə üz-üzə durmaqdan xilas yolu göstərir. R. Rza bu mühitdə ayrı mənzərə görür, ayrı fikir yürüdür. "Kənd, Mağaza, Qəfəslərdə arşın malı, sabun. Yerdə duz tayı, ağ nöyüt çəlləyi. Çəlləyin dalında kitab bağlamaları. Qəfəsədə tütünü qarışıq papiroslar; tüstüsü-zəhər. Kitablarda insan ümidi, insan arzusu. Nöyüt alırlar çıraq yandırmağa. Duz alırlar şit bişməsin xörək. Sabun alanlar da var… Növbə gözləyir kitablar… Biganəlik kölgəsində qalıb bilik, işıq. Lənətə gəlsin belə satış üsulunu. Mən cəhənnəm, heç olmasa, çıxarın o, rütubətdən, qaranlıqdan Füzulini!" Kiçik ixtisarla verdiyimiz bu şeirdə Füzuli sevgisi Azərbaycan kəndinin ümumi mədəni səviyyəsi haqqındakı düşüncələr fonunda əks etdirilir. Şair razıdır ki, onun və müasirlərinin əsərlərini bu acınacaqlı biganəlik, laqeydlik girdabından xilas etmək mümkün olmasa da, Füzuli xilas edilməlidir. Düşünmək olmaz ki, şair təqsiri ticarət üsulunda, adamların şəxsi keyfiyyətlərində görür. Belə düşünmək kobud səhv olardı. Füzulini və başqa kitabları o qaranlıq rütubətli mağazadan çıxarıb işıqlı bir dükanda yerləşdirsən də, adamlar ehtiyacları olan malları alacaqlar. R. Rza şeirində insanları ağ nöyüt, duz, sabun almaqdan başqa məsələlər barədə düşünməyə imkan verməyən zaman tənqid olunur. Bu elə bir zamandır ki, insanlar Füzuli haqqında düşünə bilmirlər. Duz, nöyüt ehtiyacları onları göz açmağa qoymur. İndi adamların çoxu yavan çörəkdən başqa bir şey düşünə bilmədikləri kimi. Belə bir vaxtda Füzulini o dar, rütubətli mağazadan çıxarmaq çətindir.

"Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub" şeirində isə R. Rza özünü qeyd şərtsiz bu sənətkarların varisi adlandırır. Buna haqqı olduğunu sübut edən dəlillər gətirir.

R. Xəlilov yazır: "Şair Nəsimiyə, Füzuliyə, Sabirə açıq məktub"unda da məhz bu amal birliyi ilə fəxr edir. Böyük ustadların qarşısında baş əyir, onlara "Ata Sabir! Dədə Füzuli! Baba Nəsimi! deyərək qürurlanır. Rəsul Rza doğrudan da, bu fəxrə, bu qürura haqqı olan şairlərdəndir". [3.s.33].

Şeir sualla başlayır və şairin bu böyük klassiklərin ənənələrini yaşadan bir sənətkar olub-olmadığını öyrənmək, bilmək arzusunu bildirir.

Düşünürəm,
haqqım varmı
Sizə
ustadım,
babam deyəm,
atam deyəm.
Yoxsa utanım
susum.
Yolunuza, işinizə
yadam deyə.
Qazanmışammı
övlad haqqını
zəhmətimlə,
məhəbbətim, nifrətimlə,
cəsarətimlə. [10.I c. s. 47].

R. Rza bu sənətkarların ənənələrinə hansı baxımdan bağlı olduğunu, nəyə görə onların şagirdi adlanmaq haqqı qazandığını dürüst müəyyənləşdirir. Məhəbbəti, nifrəti, cəsarəti, zəhməti ilə onların həqiqi varisi olduğunu söyləyir. Şeir belə inamlı misralarla bitir.

Sağ olun, var olun!
Əziz, böyük babalar!
Sizə ustadım,
Sizə babam deməyə,
Sizə atam deməyə
haqqım var. [10.I c.s. 51].

Şair belə deməyə özünü ona görə haqlı sayır ki, onlar kimi o da böyük fikirlər, böyük ideallarla yaşamış, xalqın, dünyanın, insanlığın dərdlərindən yazmış, cəsarətlə, yüksək sənətkarlıqla söz deməyi bacarmışdır.

Bütün bunlar göstərir ki, R. Rza Füzuli ənənələri ilə möhkəm tellərlə bağlı olan bir şairdir. Onun çoxsaylı etirafları da bu həqiqəti təsdiqləyir.

**Nəticə**

Rəsul Rzanın yaradıcılığında, düşüncə və qənaətlərində klassik irsin, xüsusilə Füzulinin necə bir yer tutduğunu bütün zənginliyi ilə anlamaq üçün onun öz sözlərinə müraciət edək: "Füzuli yaradıcılığı ancaq məhəbbət fəryadı, könül sızıltısı, kədər, intizar və nakam eşqin həzin iniltisi deyildir. Füzuli yaradıcılığı mənim təsəvvürümdə elə bir aləmdir ki, onun sonsuz rəngləri, bu rənglərin ən incə çalarları vardır. Burada insan gözünün görə bilmədiyi, heç bir bəyana, şərhə sığmayan zənginlik, insan qulağının eşidə bilmədiyi ahəng, səs, ün, pıçıltı, fəryad fırtınası, çağırış axını, hiss və duyğuların ləngər və təlatümü, insanı təsir qüvvəsinin məngənəsinə alıb uzun müddət əsir edən rayihələr, yalnız daxili toxunuşla duyula bilən incəliklər vardır" [6.IVc.s.84-85]. Bütün bu qənaətlər Rəsul Rzanın poetik irsində rəngarəg formalarda əks olunmuşdur. Əslində Rəsul Rza poeziyasını klassik irsin idrakı ölçülərində, sərhədlərində meydana çıxan bir poeziya kimi qiymətləndirmək daha doğru olardı.

**AFAG YUSİFLİ**

## RASUL RZA ON TRADITIONAL POETRY AND RHYME


### ABSTRACT

Rasul Rza is one of the most famous, most beloved, and widely read poets of modern Azerbaijani poetry. His poetry was received as a new phenomenon in the history of our literature, gathering both opponents and admirers. As an unwavering supporter of free verse in our literature, it is not easy to give a definitive evaluation or interpretation of Rasul Rza’s attitude toward traditional poetry in his legacy. To look for a connection between his creativity and classical heritage—particularly the traditions of Fuzuli—may seem strange and unexpected, since Rasul Rza sometimes responded to supporters of traditional poetry with sharp, even harsh replies. However, both in his scholarly articles and in his poetry, Rasul Rza expressed his attitude toward classical heritage, presenting his thoughts about art and the artist, sometimes directly and sometimes metaphorically, as both a scholar and a poet.

Without relying on past literary heritage and without respecting traditions, it is impossible to be a truly innovative artist. In other words, it is not possible to create something new without knowing and learning from the poetic quests and achievements of previous periods. Rasul Rza’s success in the field of free verse confirms this truth once again. He did not write in the classical style, nor did he turn to aruz or the ghazal genre. Yet, in his works, attachment to classical heritage, especially to the traditions of Fuzuli, is clearly felt and affirmed, both in his confessions and in his literary examples.

Although Rasul Rza’s open confessions addressed to Fuzuli belong to the 1950s–60s, the roots of his attachment to Fuzuli’s heritage and traditions go further

back, to earlier and deeper times. In his articles such as *"Müşfiqi unutmaq olmaz"*, *"Nəsiminin bir beyti haqqında"*, and *"Kanonları pozaraq"*, he discussed both classical heritage and free verse, as well as the new type of poetry born from their interaction.

The article examines the poet's reflections on poetry and the conclusions he reached, both in his scholarly works and in his poetic examples.

**Keywords:** traditions, classical heritage, free verse, poetry, innovation

## РАСУЛ РЗА О ТРАДИЦИОННОЙ ПОЭЗИИ И РИФМЕ

Р. Рза является одним из самых известных, любимых и читаемых поэтов современной азербайджанской поэзии. Его творчество было воспринято как новое явление в истории нашей литературы, собрало как противников, так и поклонников. Будучи непреклонным сторонником свободного стиха в нашей литературе, в наследии Расула Рзы нелегко однозначно оценить или истолковать его отношение к традиционной поэзии. Искать связь его творчества с классическим наследием, особенно с традициями Физули, может показаться странным и неожиданным, учитывая, что Р. Рза порой отвечал сторонникам традиционной поэзии резко, иногда даже грубовато. Однако и в своих научных статьях, и в поэзии Расул Рза выражал отношение к классическому наследию, представляя свои размышления об искусстве и художнике то напрямую, то метафорически — и как учёный, и как поэт.

Не опираясь на прошлое литературное наследие и не проявляя уважения к традициям, невозможно быть по-настоящему новаторским художником. Иными словами, невозможно создать новое, не зная и не изучая поэтические поиски и достижения прежних эпох. Успехи Расула Рзы в области свободного стиха ещё раз подтверждают эту истину. Он не писал в классическом стиле, не обращался к арузу или жанру газели. Однако в его творчестве приверженность к классическому наследию, особенно к традициям Физули, ясно ощущается и подтверждается как в его признаниях, так и в литературных примерах.

Хотя открытые признания Расула Рзы, адресованные Физули, относятся к 50–60-м годам, корни его приверженности к наследию и традициям Физули уходят глубже, в более ранние времена. В его статьях, таких как *«Müşfiqi unutmaq olmaz», «Nəsiminin bir beyti haqqında», «Kanonları pozaraq»*, речь идёт как о классическом наследии, так и о свободном стихе, а также о новой поэзии, рождающейся во взаимосвязи между ними.

В статье рассматриваются размышления поэта о поэзии и выводы, к которым он пришёл, как в научных трудах, так и в поэтических произведениях.

**Ключевые слова:** традиции, классическое наследие, свободный стих, поэзия, новаторство

**Ədəbiyyat**:

1. Arif Məmməd (Dadaşzadə). Humanist poeziya- Rəsul Rza. Seçilmiş əsərləri, I cild, Azərnəşr, Bakı, 1967
2. Ərdəbili Arif. Fərhadnamə. Bakı, "Oka" nəşri, 2007
3. Xəlilov Rahid. Rəsul Rza poeziyası, Bakı, Yazıçı, 1987
4. Rza Rəsul. Seçilmiş əsərləri. Dörd clddə I cild, Bakı, Azərnəşr, 1967
5. Rza Rəsul. Seçilmiş əsərləri. Dörd cilddə, II cild, Bakı, Azərnəşr, 1968
6. Rza Rəsul. Seçilmiş əsərləri. Dörd cilddə, III cild, Bakı, Azərnəşr, 1969
7. Rza Rəsul. Seçilmiş əsərləri. Dörd cilddə, IV cild, Bakı, Azərnəşr, 1974
8. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, IV cild, Bakı, 1982.
9. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, I cild, Bakı, 1980.
10. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, I cild, Bakı, Öndər Nəşriyyatı, 2004
11. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, I cild, Bakı, Öndər Nəşriyyatı, 2004
12. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, III cild, Bakı, Öndər Nəşriyyatı, 2004
13. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, IV cild, Bakı, Öndər Nəşriyyatı, 2004
14. Rza Rəsul. Seçilmiş əsərləri. Beş cilddə, V cild, Bakı, Öndər Nəşriyyatı, 2004

**Rəyçi: F.f.d.,dosent Y.S.Hüseynova**